

یکشنبه 12 اردیبهشت 1395 - 12:43

## Azrbaycanl jurnalist, AB Dvlt Departamentind ermnilri ifa etdi

.Btn dnyann canl izldiyi bu mtbuat konfrans hm d siyasi kisin gr vacibdir

**AranNews- Azərbaycanlı jurnalist Qənirə Ataşova ermənilərin son iki gündə cəbhədə fəallaşmasını və mülki insanlarımızı qətlə yetirməsini sübut edən şəkilləri ABŞ Dövlət .Departamentində nümayiş etdirib**

Qənirə Ataşova bu addımı ABŞ Dövlət Departamentində keçirilən ənənəvi mətbuat konfransı .zamanı atıb

Bütün dünyanın canlı izlədiyi bu mətbuat konfransı həm də siyasi çəkisinə görə vacibdir. Belə ki, burada cavabla yanaşı, sual da çox önəm daşıyır. Yəni ABŞ rəsmilərinə verilən sualın ölkənin .problemini əks etdirməsi vacibdir

Qənirə Ataşova isə Amerikanın diqqətini məhz bu yolla Azərbaycan insanlarının yaşadığı problemə yönəltməyi bacarıb. Şəkilləri görən ABŞ Dövlət Departamentinin rəsmisi Mark Toner .jurnalistdən "bu şəkilllər ermənilərin hücumunu göstərir?"-, deyə soruşub

Qənirə Ataşova isə cavabında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisini .hədəfə aldığını bir daha vurğulayıb


قدرت گرفته از پرتال شمس - ITShams.ir